

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    1 iyul 2026-cı il    №44 (3046)    https://mod.gov.az    Qiyməti 30 qəpik


## Azərbaycan Ordusu - qürurumuz, şərəfimiz və güvənc yerimiz

***Xalqımızın dövlətçilik tarixində xüsusi yer tutan əlamətdar günlərdən biri də Azərbaycan Silahlı Qüvvələrinin yaranması günüdür. Bu tarix həm hərbi bayram, həm də Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin və milli təhlükəsizliyinin rəmzi kimi qiymətləndirilir. Müasir Azərbaycan Ordusunun keçdiyi şərəfli yol Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından başlayaraq bu günədək davam edən müstəqil dövlət quruculuğu prosesinin ayrılmaz hissəsidir.***




Azərbaycan milli ordusunun təməli 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qoyuldu. Həmin gün ilk müntəzəm hərbi hissə - Əlahiddə Azərbaycan Korpusu yaradıldı və bununla da milli silahlı qüvvələrin formalaşdırılması prosesi başladı. Bu qərar Şərqdə ilk demokratik respublikanın öz dövlət atributlarını yaratmaq istiqamətində atdığı ən mühüm addımlardan biri oldu.

Yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb siyasi və hərbi şəraitdə fəaliyyət göstərirdi. Gənc dövlət xarici müdaxilələr, daxili qarşıdurmalar və müstəqilliyə qarşı yönəlmiş təhlükələrlə üz-üzə qalmışdı. Belə bir dövrdə müstəqilliyin qorunmasının əsas təminatı güclü və nizami ordunun yaranması idi. Məhz buna görə də ordu quruculuğu dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.

Azərbaycan hərb tarixində silinməz iz qoymuş görkəmli sərkərdələrdən olan general Səməd bəy Mehmandarov və general Əlağa Şıxlinski milli ordunun formalaşdırılmasında müstəsna xidmətlər göstərdilər. 1918-ci ilin dekabrında Səməd bəy Mehmandarov hərbi nazir, Əlağa Şıxlinski isə onun müavini təyin edildi. Onların peşəkarlığı, hərbi təcrübəsi və təşkilatçılıq bacarığı sayəsində qısa müddətdə döyüş qabiliyyətli milli ordu yaradıldı.

Milli ordunun yaradılmasında və formalaşdırılmasında Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) ilk hərbi naziri Xosrov bəy Sultanov və Azərbaycanın bir çox görkəmli hərb xadimləri mühüm rol oynadılar. AXC Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə, hökumət başçısı Fətəli xan Xoyski, parlament sədri Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli və digərləri dövlət quruculuğu ilə yanaşı, milli ordunun siyasi və hüquqi əsaslarının yaradılmasına mühüm töhfələr verdilər.

**(Ardı 5-ci səhifədə)**

## Ötən həftə 73 mina və 329 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyunun 22-28-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 36, tank əleyhinə 37 mina və 329 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1696,11 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




## “Qafqaz Qartalı-2026” təlimi başa çatıb



***Təsdiq olunmuş əməkdaşlıq planına əsasən, Azərbaycan, Gürcüstan və Türkiyənin xüsusi təyinatlı bölmələrinin iştirakı ilə Tbilisi yaxınlığındakı Muxrovani hərbi bazasında keçirilən “Qafqaz Qartalı-2026” birgə taktiki-xüsusi təlimi başa çatıb.***

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin bağlanış mərasimində iştirakçı ölkələrdən yüksək səviyyəli qonaqlar iştirak ediblər.

Çıxış edənlər təlimin uğurla başa çatması münasibətilə iştirakçıları təbrik edib, hər üç ölkənin xüsusi təyinatlı bölmələrinin birgə fəaliyyətlərindən məmnunluqlarını bildiriblər.

Təlimin ölkələrimiz arasında təhlükəsizlik və müdafiə sahəsində regional əməkdaşlığın, eləcə də bölmələrin döyüş hazırlığının yüksəldilməsi baxımından xüsusi əhəmiyyətə malik olduğu bildirilib.

Təlim zamanı xüsusi təyinatlılar şərti hədəfə basqın, yarımqruplar tərkibində binanın təmizlənməsi, mühəndis partlayışlarının həyata keçirilməsi, helikopterlərdən desant endirilməsi, şərti düşmənin zərərsizləşdirilməsi və digər epizodlar üzrə tapşırıqları yerinə yetiriblər.

İştirakçı ölkələrin yüksək rütbəli zabitləri təlimin gedişini izləyiblər. Xüsusi təyinatlıların fəaliyyətləri təlim rəhbərləri tərəfindən yüksək qiymətləndirilib, iştirakçılara gələcək xidmətlərində uğurlar arzulanıb.

## Milli Müdafiə Universitetinin “Zəfər” komandası beynəlxalq yarışa vəsiqə qazanıb

***Milli Müdafiə Universitetinin komandaları 27–28 iyun tarixlərində Azərbaycanda keçirilən robotexnika, innovasiya və mühəndislik sahəsində regionun nüfuzlu texnologiya yarışlarından olan "World Robot Caspian Cup 2026" yarışında uğurla iştirak ediblər.***

Milli Müdafiə Universiteti xəbər verir ki, yarışda Azərbaycanın 20 regionunu təmsil edən 145 komanda, eləcə də 8 xarici ölkədən 12 beynəlxalq komanda mübarizə aparıb.

İki gün davam edən yarış çərçivəsində iştirakçılar robot futbolu, dron texnologiyaları, süni intellekt, avtonom sistemlər, mühəndislik layihələri və digər innovativ texnoloji istiqamətlər üzrə bilik və bacarıqlarını nümayiş etdiriblər.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələri yarışda ümumilikdə 3 komanda ilə təmsil olunublar. Bunlardan iki komanda Bakı Hərbi Kollecini, bir komanda isə Cəmşid Naxçıvanski adına Hərbi Liseyini təmsil edib.

Yarışın yekun nəticələrinə əsasən, Bakı Hərbi Kollecinin "Zəfər" komandası FPV Drone ("First Person View" - birinci şəxs baxış bucağından idarə olunan dron) kateqoriyasında uğurla çıxış edərək III yerə layiq görülüb. Bu nəticə komandaya Taylandda keçiriləcək beynəlxalq yarışda iştirak hüququ qazandırıb.




Əldə olunan bu uğur kursantların yüksək hazırlıq səviyyəsinin, peşəkarlığının, innovativ düşüncə tərzinin və güclü komanda ruhunun bariz göstəricisidir. Milli Müdafiə Universiteti adından "Zəfər" komandasını təbrik edir, onlara növbəti beynəlxalq yarış mərhələsində uğurlar arzulayırıq.

# Türkiyənin Milli Müdafiə Universitetinin nümayəndə heyəti ölkəmizdə səfərdədir





*Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin (MMU) rektor müavini general-leytenant Burhan Aktaşın rəhbərliyi ilə qardaş ölkənin Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri institutlarının rəhbər və professor-müəllim heyəti, eləcə də həmin təhsil müəssisələrində keçirilən "Qərargahın idarə olunması kursu"nun dinləyiciləri ölkəmizdə səfərdədir.*



Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edib, gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Səfərin planına uyğun olaraq nümayəndə heyəti ilə görüşən Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik prinsiplərinə əsaslanan münasibətlərin hərbi təhsilin inkişafına mühüm töhfə verdiyini vurğulayıb.

Bildirilib ki, Azərbaycan ilə Türkiyə arasında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi hərbi qulluqçuların peşəkar bilik və bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət daşıyır.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən general-leytenant B.Aktaş qarşılıqlı etimad və dostluğa söykənən münasibətlərimizin inkişaf etdirilməsində bu cür səfərlərin və keçirilən görüşlərin vacibliyini qeyd edib.

Görüşdə hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər və perspektiv planlar müzakirə olunub.

Tərəflər, həmçinin peşəkar kadrların hazırlanması məqsədilə birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.



# "İriçaplı pulemyot heyətinin hazırlıq kursu"nun buraxılış mərasimi keçirilib



*2026-cı ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) Təlim və Tədris Mərkəzində "İriçaplı pulemyot heyətinin hazırlıq kursu"nun 1-ci buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə polkovnik Ceyhun Məmmədov məzunları buraxılış münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Çıxışda Azərbaycan Ordusunda hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu cür kursların əhəmiyyəti xüsusi vurğulanıb.

Məzunlar isə öz növbələrində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ordumuzun daha da qüdrətlənməsi üçün üzərlərinə düşən vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə söz veriblər.

Sonra kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunub.




# Azərbaycan Ordusunda gənc zabitlərlə nümayiş məşğələləri keçirilib





*Azərbaycan Respublikası müdafiə nazirinin müvafiq əmrinə əsasən, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Zabit ixtisas kursunun dinləyiciləri ilə nümayiş məşğələləri keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, plana uyğun olaraq dinləyicilərlə atəş, kəşfiyyat, mühəndis, artilleriya hazırlığı, döyüş maşınlarının sürülməsi, eləcə də digər ixtisas fənləri üzrə məşğələlər təşkil olunub.

Məşğələlərin əsas məqsədi şəxsi heyətin nəzəri və praktiki bacarıqlarının, eləcə də fiziki və psixoloji dözümlülüyünün artırılmasıdır.

# “Kollec həm təhsil ocağı, həm də vətənpərvərlik məktəbidir”





Müasir və qalib Azərbaycan Ordusunun memarı Ümummilli Lider Heydər Əliyev hər zaman ordu quruculuğu məsələsini xüsusi diqqətdə saxlayırdı. Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi uğurlu islahatların nəticəsində bu gün ordumuz qalib ordu kimi tarixə düşüb. Həyata keçirilən tədbirlər nəticəsində yüksək döyüş hazırlığı, peşəkar kadrlara və müasir hərbi-texniki təchizata malik olan rəşadətli ordumuzun müdafiə qüdrəti gündən-günə daha da güclənir. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri də hərbi təhsil sistemində müasir yanaşmaların tətbiq edilməsi, yeni təhsil ocaqlarının yaradılması oldu. Danılmaz faktdır ki, ordu quruculuğunu şərtləndirən əsas amillərdən biri onun peşəkar hərbçi kadrlarla komplektləşdirilməsidir. Müstəqil dövlətin atributlarından biri olan güclü və müasir tələblərə cavab verə biləcək qüdrətli ordunun yaradılmasında hərbi elm və təhsil sisteminin müstəsna əhəmiyyəti vardır. Bu sahə Azərbaycan Respublikasının təhlükəsizliyi və müdafiəsini təmin edən xüsusi strateji fəaliyyət sahəsi olmaqla yanaşı, həm də sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təmin edən təlim və tərbiyə prosesidir.

İkinci Qarabağ müharibəsindən sonra hərbi təhsil istiqamətində də uğurlu islahatlar həyata keçirilməyə başlanıldı. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 mart 2022-ci il tarixli müvafiq Fərmanına əsasən, qabaqcıl xarici orduların praktikasına əsaslanaraq Milli Müdafiə Universiteti yaradıldı. Qeyd edək ki, Milli Müdafiə Universiteti tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələri vasitəsilə ali təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığını, ümumi təhsilin tam orta təhsil, orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsini təmin edən, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi-elmi tədqiqatlar aparan, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı ali təhsil müəssisəsidir. Daha sonra dövlət başçısının "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" müvafiq Fərmanı ilə Bakıda, Gəncədə və Naxçıvanda xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin yaradılması da ordu quruculuğu, peşəkar hərbçi kadrların hazırlanması istiqamətində sistemli tədbirlərin tərkib hissəsi oldu.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən hərbi kolleclər müxtəlif ixtisaslar üzrə təhsili və əlavə təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı orta ixtisas təhsil müəssisələridir. Kolleclərin fəaliyyəti Azərbaycan Ordusu üçün orta ixtisas təhsilli subbakalavr peşəixtisas dərəcəli, milli-mənəvi və ümumbəşəri dəyərlərə malik, sağlam əqidəli, vətənpərvər, cəsur, mətin, intizamlı və müasir dünyagörüşlü mütəxəssislər hazırlamaqdan əlavə təhsil üzrə kadr hazırlığını həyata keçirməkdən ibarətdir. Təhsil ocaqlarında kursantların ixtisaslarına uyğun bilikli və bacarıqlı hərbçilər kimi formalaşması üçün yüksək səviyyədə şərait yaradılıb, eləcə də təlim-tədris prosesi müasir tələblərə uyğun təşkil olunub.

Kolleclərdə təhsil alan gənclər hərbi biliklərə yiyələnməklə yanaşı, milli-mənəvi dəyərlərə, dövlət və dövlətçiliyə sadiq, vətənpərvər gənclər kimi formalaşırlar. Onlar qalib xalqın, qalib dövlətin, qalib ordunun hərbi qulluqçusu olmağın qürurunu yaşayaraq, ordu sıralarında xidmətə başlayıb, Vətənin müdafiəsində dayananların sırasında olmağın arzusu ilə təhsil alırlar. Bu gün isə onların arzuları çin oldu. Belə ki, minlərlə gəncin təhsil aldığı kolleclərin ilk buraxılış mərasimləri keçirildi.

Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin "Hərbi Feldşer işi" ixtisası üzrə məzunlarının buraxılış mərasimi keçirildi.

Heydər Əliyev adına Hərbi İnstitutda keçirilən buraxılış mərasimində əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ərazidə ucaldılan abidəsi, eləcə də institutun Vətən müharibəsində şəhid olan hərbi qulluqçularının “Xatirə kompleksi” ziyarət olundu, qarşısına güllər düzülərək əziz xatirələri dərin hörmətlə yad edildi. MMU-nun rəhbərliyi, zabit, müəllim, kursant heyəti və digər qonaqların iştirak etdiyi tədbirdə Bakı Hərbi Kollecinin Döyüş bayrağı sıra meydanına gətirildi. Sonra Ulu Öndərin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.







Mərasimdə çıxış edən Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov qeyd etdi ki, eyni vaxtda Bakı Hərbi Kollecində, Naxçıvan Hərbi Kollecində və Hərbi Tibb Fakültəsində məzunların növbəti buraxılış mərasimi keçirilir. General-mayor G.Əbdülov Müdafiə Nazirliyi rəhbərliyinin təbriklərini məzunlara və onların valideynlərinə çatdırdı.

MMU rektoru Vətən müharibəsində qazanılan qələbənin müstəqil fəaliyyət göstərə bilən kiçik bölmələrin çevikliyi və komandir heyətinin peşəkarlığı sayəsində olduğunu vurğuladı. Bu səbəbdən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 14 dekabr 2023-cü il tarixli Fərmanına əsasən, Bakı, Gəncə və Naxçıvan Muxtar Respublikasında hərbi kolleclərin təsis edilməsinin böyük məqsədlərə xidmət edən tarixi əhəmiyyətli strateji addım olduğu xüsusi qeyd olundu.

General-mayor G.Əbdülov bildirdi ki, Azərbaycan Ordusu hazırda regionun ən qüdrətli və müasir ordusudur, bu gücü və qüdrəti qoruyub saxlamaq üçün ordu daim inkişaf etməlidir. Bildirildi ki, yaradılan hərbi təhsil müəssisələri də bu zərurətin təntənəsidir. Vurğulandı ki, məzun olan hərbi qulluqçular bundan sonra ixtisaslar üzrə müxtəlif qoşun növlərində xidmət edəcəklər. Vətən qarşısında çətin, şərəfli yola qədəm qoyan hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulandı. Əminliklə bildirildi ki, onlar oxuduqları müddət ərzində mükəmməl hərbi təhsilə yiyələniblər. Aldıqları hərbi bilik və praktiki bacarıqlar daim onların köməyinə çatacaq.

Məzun valideynləri adından çıxış edən şəhid atası Vüqar Hüseynov daha bir əlamətdar günün işığına toplaşdıqlarını qeyd etdi. Övladlarının hərbi peşəni seçdikləri üçün qürur duyduğunu bildirdi. “Bu kolleclərin yaradılması gənclərin hərbi peşəyə olan marağını daha da artırdı. Övladlarımız təhsil ocağının ilk məzunlarıdır. İkiqat qürurluyuq ki, övladlarımız qalib ordunun nümayəndəsi olurlar. Onlara bilik və bacarıqları aşılayan zabit və müəllimlərə minnətdarlığımızı bildiririk. Əminik ki, övladlarımız xidmətlərini uğurla yerinə yetirəcək, qalib ordumuzun adına layiqli nümunəvi hərbçilər olacaqlar”.

Məzunlar adından çıxış edən kurs birinciləri Elçin Həsənzadə və İmran Səfərəliyev təhsil müddətində yaradılan şəraitə görə dövlət rəhbərliyinə, Müdafiə Nazirliyi və MMU-nun rəhbərliyinə, eləcə də müəllimlərə minnətdarlıqlarını ifadə etdilər. Onlar hərbçi olmağın qürurunu yaşadıqlarını bildirərək, düşüncələrini bölüşdülər: “Biz kollecin ikinci məzunlarıyıq. Bu da bizi ikiqat sevindirir. Belə bir kollecin yaradıldığını eşidəndə sevinmişdik. Qəbul üçün valideynlərimizin də razılığını alıb, müraciət etmişdik. Qəbul imtahanlarında uğurlu nəticə göstərərək ixtisaslarımıza uyğun təhsil aldıq. Kollec həm təhsil ocağı, həm də vətənpərvərlik məktəbidir. Burada ixtisasımıza uyğun nəzəri və praktiki biliklər, eləcə də Vətən sevgisi, vətənpərvərlik, müsbət əxlaqi keyfiyyətlər aşılayırlar. Bu gün qürurluyuq ki, təhsilimizi uğurla başa vurub məzun oluruq. Söz veririk ki, xidmət edəcəyimiz bölmələrdə nümunəvi xidmətimizlə bizə olan etimadı doğruldacağıq”.



Daha sonra Milli Müdafiə Universitetinin rektoru buraxılış mərasiminin proqramına uyğun olaraq məzunlara və pedaqoji fəaliyyətində yüksək nəticələr əldə etmiş müəllim heyətinə diplom, sertifikat və fəxri fərmanlar təqdim etdi.

Bakı Hərbi Kollecinin və Hərbi Tibb Fakültəsinin tədrisdə və intizamda fərqlənən məzunları rəmzi yaş kötüklərinə xatirə lövhələrini vurdular. Bakı Hərbi Kollecinin Döyüş Bayrağının təhvili və qəbulu mərasimi keçirildi, hərbi orkestrin müşayiəti ilə məzunlar Hərbi kollecin marşını ifa etdilər.

Tədbir məzunların tribunanın önündən təntənəli keçidi ilə başa çatdı.

**Bəxtiyar ƏLİYEV**
**“Azərbaycan Ordusu”**

# Naxçıvan Hərbi Kollecində buraxılış mərasimi keçirilib



*Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin birinci buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kənan Seyidov, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov və digər vəzifəli şəxslərin iştirak etdiyi tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Sonra Naxçıvan Hərbi Kollecinin rəisi buraxılış mərasiminə hazırlıq barədə Əlahiddə Ümumqoşun Ordunun komandanına məruzə edib.

Mərasimdə çıxış edən general-leytenant Kənan Seyidov məzunları təbrik edərək, onlara gələcək xidmətlərində uğurlar arzulayıb, Vətənə sədaqətlə xidmət etməyin, Hərbi Andı daim uca tutmağın və Azərbaycan hərbi qulluqçusu şərəfli adını layiqincə qorumağın vacibliyini vurğulayıb.

Sonra Milli Müdafiə Universiteti rektorunun elm və təhsil üzrə müavini general-mayor Arif Həsənov çıxış edərək məzunları əlamətdar gün münasibətilə təbrik edib, onlara Vətənə şərəflə xidmət etməyi, peşəkar hərbi qulluqçu kimi daim inkişaf etməyi arzulayıb.



Mərasimdə Naxçıvan Hərbi Kollecini fərqlənmə ilə bitirən məzunlara sertifikatlar və qiymətli hədiyyələr təqdim olunub. Daha sonra kolleci bitirən digər məzunlara rəhbər heyət tərəfindən sertifikatlar təqdim edilib.

Kolleci birinciliklə başa vuran məzun tərəfindən rəmzi yaş kötüyünə xatirə simvolu vurulub, Naxçıvan Hərbi Kollecinin Döyüş Bayrağının təhvili və qəbulu mərasimi icra olunub.

Tədbir şəxsi heyətin təntənəli marşla keçidi ilə başa çatıb.







# Azərbaycan-Türkiyə qardaşlığı musiqinin dili ilə



*"Bir millət, iki dövlət" fəlsəfəsi üzərində qurulan Azərbaycan-Türkiyə münasibətləri bu gün siyasi, iqtisadi və humanitar sahələrlə yanaşı, hərbi əməkdaşlıq istiqamətində də uğurla inkişaf edir. İki qardaş ölkənin Silahlı Qüvvələri arasında keçirilən birgə təlimlər, qarşılıqlı təcrübə mübadiləsi, hərbi təhsil və müdafiə sənayesi sahəsində həyata keçirilən layihələr strateji müttəfiqliyin mühüm göstəriciləridir. Silahlı Qüvvələr Günü münasibətilə təşkil olunan bayram tədbiri də bu sarsılmaz qardaşlığın növbəti təzahürü oldu.*



26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə paytaxtın Fəvvarələr meydanında Türkiyə Silahlı Qüvvələrinin Armoni və Milli Müdafiə Universitetinin (MMU) Hərbi İdarəetmə İnstitutunun orkestrlərinin iştirakı ilə möhtəşəm konsert proqramı təşkil edildi. Tədbirdə Azərbaycan Ordusunun hərbi qulluqçuları, Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyəti, dövlət qurumlarının əməkdaşları, şəhər sakinləri və paytaxtın qonaqları iştirak edirdilər.

Konsert proqramı başlamazdan əvvəl Ümummilli Lider Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün, həmçinin Vətən uğrunda canlarını fəda etmiş Azərbaycan və Türkiyə şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Respublikasının İstiqlal Marşı səsləndirildi.

Tədbirin aparıcısı Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının əhəmiyyətindən bəhs edərək iki qardaş xalqın tarix boyu bir-birinə verdiyi dəstəyin bu gün də uğurla davam etdiyini vurğuladı. Daha sonra söz Türkiyə Silahlı Qüvvələrinin Armoni orkestrinin aparıcısına verildi.

Konsert proqramında MMU-nun Hərbi İdarəetmə İnstitutunun orkestrinin fəaliyyəti barədə məlumat təqdim olundu. Bildirildi ki, orkestr 15 fevral 1992-ci ildə keçmiş Bakı Ali Birləşmiş Komandanlar Məktəbinin bazasında yaradılıb. Hazırda 42 nəfərlik heyətlə fəaliyyət göstərən kollektiv Azərbaycan Respublikası Müdafiə Nazirliyinin qabaqcıl musiqi kollektivlərindən biridir. Orkestr 2019-cu ildən etibarən müxtəlif beynəlxalq festivallarda ölkəmizin zəngin musiqi irsini və hərbi musiqi ənənələrini uğurla təmsil edir.



Bədii hissədə Türkiyə Silahlı Qüvvələrinin Armoni və Hərbi İdarəetmə İnstitutunun orkestrləri tərəfindən klassik və hərbi marşlardan, vətənpərvərlik ruhunu tərənnüm edən musiqi nömrələrindən ibarət zəngin repertuar təqdim edildi. "Koroğlu" uvertürası, "Cəngi", "Vətən marşı", "Çırpınırdı Qara dəniz" və digər musiqili əsərlər tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Fəvvarələr meydanında bayram əhvali-ruhiyyəsi hökm sürürdü. İzləyicilər, xüsusilə gənclər və azyaşlı uşaqlar hərbçilərlə xatirə şəkilləri çəkdirir, Azərbaycan və Türkiyə bayraqlarını qürurla dalğalandırırdılar. Tədbir iştirakçıları belə konsertlərin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində, Azərbaycan-Türkiyə qardaşlığının təbliğində və hərbi musiqi ənənələrinin yaşadılmasında mühüm rol oynadığını qeyd etdilər.

Yüksək peşəkarlıqla təşkil olunan konsert proqramı iki qardaş ölkə arasında mövcud olan sarsılmaz dostluğun və strateji müttəfiqliyin növbəti parlaq təcəssümü kimi yadda qaldı.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusu - qürurumuz, şərəfimiz və güvənc yerimiz

(Əvvəli 1-ci səhifədə)



1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini elan etdikdən sonra qarşıda duran ən mühüm vəzifələrdən biri milli ordunun yaradılması idi. Yeni yaranan müstəqil dövlətin öz sərhədlərini qorumaq, daxili sabitliyi təmin etmək və xarici təhlükələrin qarşısını almaq üçün güclü silahlı qüvvələrə ehtiyacı var idi. Məhz buna görə də 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi birləşmə – Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Bu qərar Azərbaycan Milli Ordusunun yaranmasının hüquqi əsası hesab edilir. Beləliklə, nizami ordu yaradıldı və dövlət büdcəsinin əsas hissəsi hərbi sahəyə yönəldildi. Qısa müddət ərzində formalaşan Azərbaycan Milli Ordusu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakının və ətraf bölgələrin erməni-bolşevik qüvvələrindən azad edilməsində mühüm rol oynadı.

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ay ərzində ordu quruculuğu sahəsində mühüm addımlar atdı. Hökumət tərəfindən 25 min nəfərlik nizami ordunun daha da artırılması məqsədi qarşıya qoyuldu.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə milli ordu ləğv edildi. Bir çox azərbaycanlı zabit və generallar repressiyalara məruz qaldı, onların bir qismi güllələndi. Lakin xalqımızın hərbi ənənələri tamamilə məhv edilə bilmədi. Sovet dövründə də azərbaycanlı gənclər müxtəlif hərbi məktəblərdə təhsil alaraq peşəkar hərbçi kimi yetişdilər.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, onun yaratdığı milli ordu ən qiymətli dövlətçilik irslərindən biri oldu. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğraması ilə milli ordu fəaliyyətini dayandırsa da, müstəqil Azərbaycan Ordusu ideyası xalqın yaddaşında yaşamaqda davam edirdi.

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yenidən qurulması prosesi başlandı. Həmin il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti Milli Ordunun yaradılması haqqında qərar qəbul etdi. Bu qərar müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin yaradılmasının başlanğıcı oldu. Lakin həmin dövrdə ölkədə mövcud olan siyasi qeyri-sabitlik, Ermənistanın torpaqlarımıza hərbi təcavüzü və daxili hərc-mərcliklər ordunun inkişafına ciddi maneələr yaradırdı. Məhz belə bir zamanda ölkəni xaosdan xilas etmək üçün güclü və uzaqgörən siyasi liderə ehtiyac var idi. Xalq bunun çıxış yolunu Dahi Rəhbər Heydər Əliyevin yenidən hakimiyyətə gətirilməsində gördü. Bu məqsədlə də 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə yenidən qayıdan xalqımızın Ümummilli Lideri Heydər Əliyev dövlət quruculuğu ilə yanaşı, ordu quruculuğunu da prioritet istiqamətə çevirdi. Orduda vahid komandanlıq yaradıldı, hərbi nizam-intizam gücləndirildi, peşəkar kadr hazırlığına xüsusi diqqət yetirildi.

Ulu Öndərin müəyyən etdiyi ordu quruculuğu strategiyası sonrakı illərdə ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsində həlledici rol oynadı və Azərbaycanın hərbi qüdrətinin yüksəlişinin əsasını təşkil etdi.

Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanı ilə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 İyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi. Bununla da Azərbaycan Ordusunun tarixi köklərinə verilən yüksək qiymət bir daha təsdiqləndi.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu yeni mərhələyə qədəm qoydu. Ordunun madditexniki bazası gücləndirildi, müasir silah və texnikalar alındı, hərbi infrastruktur yeniləndi, beynəlxalq təcrübə tətbiq olundu. Azərbaycan Ordusunun döyüş qabiliyyəti ilk növbədə 2016-cı ilin Aprel döyüşlərində özünü göstərdi. Daha sonra 2018-ci ilin Günnüt əməliyyatı, 2020-ci ilin Tovuz döyüşləri ordumuzun peşəkarlığını və yüksək döyüş qabiliyyətini bir daha nümayiş etdirdi. Bu uğurlar 2020-ci ildə başlayan Vətən müharibəsində tarixi Zəfərin əsasını qoydu.

2020-ci il sentyabrın 27-də düşmənin genişmiqyaslı təxribatlarına cavab olaraq həyata keçirilən əks-hücum əməliyyatı ilə başlayan Vətən müharibəsi Azərbaycan xalqının hərb tarixinə yeni bir səhifə - Zəfər səhifəsi yazdı. Azərbaycan Ordusu yüksək döyüş hazırlığı, peşəkarlıq və vətənpərvərlik nümayiş etdirərək işğal altında olan torpaqlarımızı azad etdi. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və digər işğalda qalan rayonlarımız azad edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu tarixi qələbə Azərbaycan Ordusunun gücünü bütün dünyaya nümayiş etdirdi. 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər Paradı isə dövlət-xalq-ordu birliyinin və tarixi Zəfərin təntənəsinə çevrildi.

Azərbaycan Ordusunun qüdrətinin əsas mənbələrindən biri xalq ilə ordu arasında yaranan möhkəm birlikdir. Tarixin bütün mərhələlərində Azərbaycan əsgəri xalqın sevgisini, etimadını və dəstəyini hiss edib. Vətən müharibəsi dövründə də bu birlik özünü ən parlaq formada göstərdi. Ön cəbhədə döyüşən əsgərlərimizə vətəndaşlarımızın mənəvi dəstəyi, həmrəyliyi və inamı qələbəyə aparan əsas amillərdən biri oldu. Bu gün də xalq-ordu birliyi dövlətimizin gücünün və sabitliyinin mühüm təminatlarından hesab edilir.

Bu gün Azərbaycan Ordusunda gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına xüsusi diqqət yetirilir. Hərbi təhsil müəssisələrində peşəkar zabit kadrlarının hazırlanması, gənclərin milli-mənəvi dəyərlərə sadiq ruhda yetişdirilməsi ordunun gələcək inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan gəncləri hərbi xidməti Vətən qarşısında müqəddəs borc kimi qəbul edir, dövlətimizin müdafiəsinə hazır olduqlarını şərəfli xidmətləri ilə göstərirlər.

Hazırda işğaldan azad edilən ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinin təhlükəsizliyinin təmin edilməsində də Azərbaycan Silahlı Qüvvələrinin rolu böyükdür. Ordumuz Vətənimizin silahlı müdafiəsinin təşkili, torpaqlarımızın qorunması, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi və sabitliyin təmin olunması istiqamətində öz şərəfli missiyasını uğurla davam etdirir. Qarabağ və Şərqi Zəngəzurda dalğalanan üçrəngli bayrağımız Azərbaycan əsgərinin qəhrəmanlığının və böyük şücaətinin rəmzidir.

Bu gün Azərbaycan Ordusu regionun ən güclü orduları sırasında yer alır. Müasir texnologiyalar, peşəkar kadr heyəti, yüksək mənəvi-psixoloji hazırlıq, dövlətin və xalqın dəstəyi ordumuzun əsas üstünlükləridir. Ordumuzun gücü təkcə silahlarında deyil, əsgər və zabitlərinin Vətən sevgisində, xalqına bağlılığında və döyüş ruhundadır.

Azərbaycan əsgəri hər zaman Vətənin keşiyində ayıq-sayıq dayanır. Üzərinə düşən şərəfli vəzifələri yerinə yetirən hərbi qulluqçularımız xalqımızın qürur mənbəyidir.

Azərbaycan Silahlı Qüvvələr Günü hər bir azərbaycanlı üçün qürur və iftixar günüdür. Bu əlamətdar tarix bizə dövlətimizin müstəqilliyinin necə qorunduğunu xatırladır, gələcək nəsillərə Vətən sevgisi, milli birlik və dövlətçilik ənənələrinə sədaqət hissləri aşılayır.

Bu əlamətdar gün Azərbaycan xalqının qəhrəmanlıq tarixinin, dövlətçilik ənənələrinin və milli qürurunun təcəssümüdür. Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulan, Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə daha da qüdrətlənən Azərbaycan Ordusu bu gün də inkişaf edir və müstəqil Azərbaycanımızın ərazi bütövlüyünü və suverenliyini etibarlı şəkildə qoruyur. İnanırıq ki, rəşadətli Azərbaycan Ordusu bundan sonra da ölkəmizin təhlükəsizliyinin etibarlı təminatçısı olaraq, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşamasına öz töhfəsini verəcəkdir.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Bakıda NATO-nun Mobil Təlim Qrupunun kursu keçirilir



Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2026-cı il üçün "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na əsasən, Bakıda NATO Quru Qoşunları Komandanlığının Mobil Təlim Qrupu tərəfindən kurs keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi qulluqçulara NATO-nun Mobil Təlim Qrupu tərəfindən "NATO-da təlim planlaşdırılması", "NATO standartlarında təlimlərin aparılması, məqsədlərin seçilməsi" və digər mövzularda brifinqlər təqdim edildikdən sonra qrup və fərdi şəkildə məşğələlər təşkil olunub.



Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərbi İdarəetmə Kursunun dinləyicilərinin cəlb olunduğu kursun əsas məqsədi hərbi qulluqçuların nəzəri və praktiki biliklərinin dövrün tələblərinə uyğun artırılması, müasir texnoloji həll üsul və vasitələrinin tətbiqinin tədris edilməsi, həmçinin iştirakçılara bu sahədə NATO standartlarının öyrədilməsidir.

Qeyd edək ki, kurs iyulun 2-dək davam edəcək.

# "Yaşasın, qalib Azərbaycan Ordusu!"

*26 İyun – Silahlı Qüvvələr Günü və Azərbaycan Ordusunun yaradılmasının 108-ci ildönümü münasibətilə Bakıda keçirilən hərbi yürüş paytaxt sakinlərinə unudulmaz anlar yaşatdı. Paytaxtın müxtəlif küçə və prospektlərində təyin olunmuş marşrut boyunca hərəkət edən hərbi orkestrlərin ifasında səslənən marşlar, nizamlı addımlayan hərbi qulluqçular və dalğalanan Dövlət Bayrağımız şəhərdə xüsusi bayram ovqatı yaratdı. Küçələrə toplaşan yüzlərlə insan Azərbaycan Ordusuna sevgisini və ehtiramını alqışlarla ifadə etdi. Keçirilən yürüş bir daha nümayiş etdirdi ki, Azərbaycan xalqı öz ordusunu yüksək qiymətləndirir və onun uğurları ilə qürur duyur.*



Yürüşlər başlamazdan əvvəl Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Mərasim iştirakçıları Dövlət Himnini böyük qürur hissi ilə ifa edərək dövlətçiliyimizə, şəhidlərimizin xatirəsinə və Azərbaycan Ordusuna ehtiramlarını ifadə etdilər.

Rəsmi hissənin başa çatması ilə hərbi yürüşlərə start verildi. Hərbi orkestrin coşqulu müşayiəti altında irəliləyən hərbi qulluqçuların nizamlı düzülüşü, eyni ahəngə atılan qətiyyətli addımları, vahid geyim forması və yüksək intizamı paytaxt sakinlərinin diqqətini cəlb etdi. Azərbaycan əsgərinin hazırlığı, peşəkarlığı və döyüş ruhu hər addımda aydın hiss olunurdu. Şəhərin mərkəzi küçələrində yara-



nan bu əzəmətli mənzərə yürüşü izləyənlərdə dərin iftixar hissi doğururdu. Marşrut xətti boyunca addımlayan hərbi qulluqçuları görmək üçün küçələrə axışan insanlar onları əllərində üçrəngli bayrağımızla və gur alqışlarla qarşılayırdılar. Hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri təşkil olunan hər yerdə xalqla ordunun sarsılmaz birliyi növbəti dəfə öz təsdiqini tapdı. Yürüşü böyük coşqu ilə izləyən paytaxt sakinləri və qonaqlar da təəssüratlarını bölüşərək Azərbaycan Ordusunun qüdrətindən doğan qürurlarını gizlətmədilər.

Ailəsi ilə birgə yürüşü izləyənlər arasında yer alan şəhər sakini Anar Təhmazov hisslərini bu sözlərlə ifadə etdi: "Bu gün bura qızımla və oğlumla birlikdə gəlmişəm. Burada olmaq, hərbi qulluqçuların yürüşlərini övladlarımla birgə canlı izləmək mənim üçün böyük qürurdur. Əsgərlərimizin intizamı və qətiyyəti ölkəmizin necə güclü orduya malik olduğunu bir daha göstərdi. Bu mənzərəni izləyərkən şəhidlərimizin fədakarlığını, döyüşlərdə sağlamlığını itirənlərin igidliyini xatırladım. Ordumuzun hər bir hərbi qulluqçusuna möhkəm cansağlığı və şərəfli xidmətlərində uğurlar arzulayıram".

Yürüş heyətinin addımları ətrafdakı gənc nəslin də vətənpərvərlik hisslərini coşdururdu.



Yürüşə oğlu ilə qatılan digər şəhər sakini Anar Həsənov isə belə anların əhəmiyyətini xüsusi vurğuladı: "Belə tədbirlər xalqla ordunun birliyini daha aydın göstərir. Hamı hərbi qulluqçuları alqışlayır, uşaqlar onlara böyük rəğbət göstərirlər. Mən də oğlumu bura gətirmişəm ki, bu qüruru yaşasın. Düşünürəm ki, bu cür hərbi yürüşlər gənc nəslin vətənpərvərlik ruhunda böyüməsinə, ordumuza olan sevgisinin artmasına mühüm töhfə verir. Biz müstəqil dövlətimizlə, güclü və qalib ordumuzla fəxr edirik".

Ordumuzun keçdiyi tarixi inkişaf yolu, inamlı zəfərləri vətəndaşlarımızın yaddaşına əbədi həkk olunub. Hər bir azərbaycanlı qalib ordusuna sonsuz güvənir. Sakinlərdən Coşqun Məmmədli ordumuzun yaratdığı böyük inam hissinə toxundu: "Yürüşü izləyərkən Azərbaycan Ordusunun keçdiyi şərəfli yolu düşündüm. Bu gün biz təhlükəsiz və azad ölkədə yaşayırıqsa, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunubsa, bunun arxasında ordumuzun fədakar xidməti dayanır. Hərbi qulluqçularımızın peşəkarlığı, intizamı və yüksək döyüş hazırlığı bizə tarixi qələbələr qazandırdı və xalqımıza Zəfər sevincini yaşatdı. Bu gün hər birimiz müstəqilliyimizin qarantı olan rəşadətli Azərbaycan Ordusuna sonsuz güvənirik. Ordumuzun hər bir mənsubunu səmimi-qəlbdən təbrik edir, müqəddəs peşələrində müvəffəqiyyətlər arzulayırıq".

Böyük maraq və rəğbətlə yürüşü izləyən gənclərdən Soltan Məlikov hisslərini belə ifadə etdi: "Hər kəs kimi, mən də ordumuzla qürur duyuram. Hərbçilərimizin 44 günlük Vətən müharibəsində və sonrakı döyüş əməliyyatlarında göstərdiyi fədakarlıqlar, qəhrəmanlıqlar hər birimiz üçün örnəkdir. Müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canını qurban verən şəhidlərimizin əziz xatirəsi bizim qəlbimizdə daim yaşayır. Bu gün yürüş edən hərbçilərimizin hər addımını, onların yüksək hazırlığını böyük maraqla izlədim. Bu yürüş mənim üçün həm çox maraqlı, həm də olduqca yaddaqalan bir hadisə oldu. Yaşasın, qalib Azərbaycan Ordusu!".

Meydandakı bu qürurverici mənzərə, eyni zamanda, keçmişin ağrılı, lakin şərəfli günlərini xatırladaraq kövrək anların yaşanmasına da səbəb oldu. Təəssüratlarını bölüşərkən göz yaşlarını saxlaya bilməyən şəhər sakini Firəngiz Həsənova ordumuzun xalqın ən böyük güvənc yeri olduğunu bildirdi: "Azərbaycan Ordusu hər bir azərbaycanlının qürur mənbəyidir. Onların bu nizamlı keçidini izlədikcə 44 günlük Vətən müharibəsindəki günlər gözümün önündə canlanır və insan kövrəlməyə bilmir. Cəbhədən qələbə xəbərləri gəlirdi, sevinirdik, şəhidlərimizin nəşini dəf edirdilər, üzülürdük. O duyğusal anları unutmaq mümkün deyil. Allahdan bir daha şəhidlərimizə rəhmət, sağlamlığı-





nı itirənlərə şəfa, onların ailə üzvlərinə səbir diləyirik. Hər birimiz inanırıq ki, rəşadətli ordumuz bundan sonra da dövlətimizin təhlükəsizliyini etibarlı şəkildə qoruyacaq".

Paytaxt küçələrində ruh yüksəkliyi ilə qarşılanan hərbi qulluqçuların nizamlı hərəkəti təyin olunmuş marşrut üzrə davam edərək Şəhidlər xiyabanında yekunlaşdı. Yürüşün məhz bu müqəddəs məkanda başa çatması, bu torpaqların hansı böyük fədakarlıqlar və qəhrəmanlıqlar hesabına qorunduğunu, şəhidlərimizin əziz xatirəsinə olan dərin ehtiramı və minnətdarlıq hissini bir daha hər kəsə xatırlatdı.

Bakıda keçirilən bu yürüşlərlə eyni vaxtda Naxçıvan, Sumqayıt, Gəncə, Bərdə, Xankəndi, Laçın və Şuşa şəhərlərində də hərbi orkestrin müşayiəti ilə yürüşlər təşkil olunmuşdu. Ölkənin müxtəlif bölgələrində keçirilən bu tədbirlər Azərbaycan xalqının öz orduzuna olan sonsuz inamını, sevgisini və dəstəyini bir daha nümayiş etdirdi. Hər bir şəhərdə insanlar küçələrə çıxaraq hərbi qulluqçuları alqışlarla qarşıladı, Silahlı Qüvvələr Gününü böyük ruh yüksəkliyi ilə qeyd etdilər.



Azərbaycan Ordusunun yaradılmasının 108-ci ildönümünə həsr olunan bu irimiqyaslı yürüşlər bir daha göstərdi ki, xalqla ordu arasında sarsılmaz bir birlik mövcuddur. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarixi Zəfər qazanan Azərbaycan Ordusu bu gün də yüksək döyüş hazırlığı, peşəkar şəxsi heyəti, müasir silah və texnikası, möhkəm intizamı ilə regionun ən güclü orduları sırasında yer alır. Azərbaycan əsgəri Vətənimizin keşiyində ayıq-sayıq dayanaraq dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, təhlükəsizliyini və xalqımızın dinc həyatını etibarlı şəkildə qorumağa davam edir.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Respublikasının Silahlı Qüvvələri müstəqilliyin və milli təhlükəsizliyin etibarlı təminatçısıdır

Suveren dövləti səciyyələndirən əsas komponentlər sırasında onun qüdrətli hərbi gücə malik Silahlı Qüvvələri xüsusi yeri tutur. Təyinatı Azərbaycan Respublikasının silahlı müdafiəsi, təcavüzün dəf edilməsi, milli təhlükəsizliyinin və milli maraqların təmin edilməsi, konstitusiya quruluşunun, suverenliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, dövlət sərhədinin mühafizəsi və digər əhəmiyyətli məqsədlərə xidmət edən Silahlı Qüvvələr şərəfli inkişaf yolu keçib. 1918-ci iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə ilk nizami hərbi hissə – Əlahiddə Azərbaycan Korpusu təşkil olunub və bu tarixi hadisə Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, rəsmi dövlət bayramı - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranması günü kimi qeyd edilir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Nizami Səfərov bildirib. O xatırladıb ki, müstəqilliyin ilk illərində AXC-Müsavat hakimiyyəti dövrü Azərbaycanda hərcmərclik, özbaşınalıq, iqtisadi, sosial, ictimai və siyasi həyatda xaos sürdüyü bir dövr kimi yaddaşlarda qalıb: "Həmin dövrdə nizami ordudan, silahlı qüvvələrdən əsər-əlamət yox idi. Belə bir acınacaqlı vəziyyət düşmənin torpaqlarımıza təcavüzünün getdikcə daha geniş miqyas alması və müstəqilliyin itirilməsi ilə nəticələnə bilərdi. Bu cür mürəkkəb bir vaxtda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev müxtəlif başıpozuq silahlı dəstələri ləğv edərək, nizami ordu quruculuğu prosesinə təkan verdi və qısa zaman kəsiyində Silahlı Qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırıldı, döyüş hazırlığı yüksək səviyyəyə gətirildi, ordu quruculuğu müasir beynəlxalq standartlara uyğun olaraq təşkil edildi. Ordu quruculuğu sahəsində ən mühüm addımlar sırasında görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılması xüsusi olaraq qeyd edilməlidir. Sözügedən məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın gücləndirilməsinə, azərbaycanlı zabit kadrlarının hazırlanmasına ciddi təkan verib".

Deputat vurğulayıb ki, Ulu Öndərin ordu quruculuğu strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində Azərbaycan Ordusu qısa zaman kəsiyində regionun ən qüdrətli ordusuna çevrildi: "44 günlük Vətən müharibəsi və qısamüddətli antiterror tədbirləri nəticəsində otuzillik işğala son qoyuldu, ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildi. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer alıb.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur".

Əsgərə məktub

# Məktubların qanadında Vətən sevgisi



***Arxa cəbhə ilə ön xətt arasında qurulan mənəvi körpünün böyüyən nəsildə hərbi xidmətə dərin hörmət hissi formalaşdırdığını desək, yanılmarıq. Məhz bu körpü vasitəsilə yeniyetmə yaşlarında olan uşaqlarımız Vətənə xidmətin önəmini anlayır, xalqına, torpağına sonsuz məhəbbət bəsləyirlər.***

Bu dəfə də “Əsgərə məktub” layihəsi çərçivəsində Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbin dördüncü sinif şagirdləri tərəfindən yazılan səmimi məktubları sahiblərinə çatdırmaq üçün yola düşdük. Əvvəlcədən razılaşdığımız kimi, Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Naib Cəfərovla birlikdə ön xətdə xidmət edən igidlərimizin yanına yollandıq.



Bizi qarşılayan şəxsi heyətlə səmimi salamlaşıb görüşdük. Ərazidə olarkən, xidmət mərkəzinin ən ucqar yerdə yerləşməsinə baxmayaraq, yaradılmış yüksək şərait diqqətimizdən yayınmadı. Müasir standartlara cavab verən bu binada bütün kommunal şərait nəzərə alınıb. Hərbi qulluqçuların normal xidmət aparması üçün yataqxana, qazanxana, hamam, istirahət və sinif otaqları, bərbərxana, idman zalı, həyətyanı sahədə əlavə idman meydançası, istirahət guşələri, kitabxana, yeməkxana, inzibati otaqlar, poçt və telefon xidməti fəaliyyət göstərir. Hətta şəxsi heyətin isti çörəklə təmin olunması üçün daxili çörək sexinə qədər hər bir detal ən incə xırdalığına kimi düşünülüb.

Burada postlardan birində tikinti işlərinin aparıldığının da şahidi olduq. Zabit N.Cəfərov bildirdi ki, ön xətdə yerləşən bütün postlarımıza ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin adları verilir. Şübhəsiz ki, bu addım həmin mövqelərdə xidmət aparan gənclərimizə əlavə bir qürur və məsuliyyət hissi bəxş edir. Onu da öyrəndik ki, polkovnik Naib Cəfərov mütəmadi olaraq hərbi hissələri gəzir, əsgərlərlə ruhlandırıcı söhbətlər aparır və onların mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasını daim diqqət mərkəzində saxlayır.

Nəhayət, səmimi söhbət əsnasında məktəblilərin məktublarını əsgərlərimizə paylamaq məqamı gəlib çatdı. Bunu ilk dəfə etməsəm də, hər bir məktubu əsgərə təqdim edərkən



içimdə təsvir edə bilmədiyim bir həyəcan, bir sevinc var idi. Şagirdlərin göndərdiyi məktubları igidlərimiz böyük maraq və diqqətlə oxudular. Bu səmimi sətirlərin onlara necə böyük bir güc bəxş etdiyini simalarındakı təbəssümdən oxumaq o qədər də çətin deyildi. Onlar da öz növbəsində balaca məktəblilərə sevgi və minnətdarlıq dolu cavablar yazmağa başladılar.

Söhbət əsnasında daha bir təsirli məqamla qarşılaşdıq. Məlum oldu ki, həmin bölmədə xidmət edən əsgərlərdən birinin - Xəyalın ad günüdür. Zabit Naib Cəfərov əliboş gəlməmişdi; əvvəlcədən xüsusi hədiyyə alıb hazırlamışdı. O, şəxsi heyətin qarşısında ad günü olan əsgəri təbrik etdi, səmimi arzularını çatdırdı və komandanlıq adından dəyərli hədiyyəni ona təqdim etdi. Bu xoş anlar xatirə şəkli çəkdirməklə əbədiləşdirildi.

Əsgəri yaxından tanımağa başladıq. Məlum oldu ki, ad gününü ön xətdə qeyd edən və nümunəvi xidməti ilə seçilən bu vətənpərvər gənc Şərur rayonunun Qaroxun kəndində anadan olmuş Xəyal Kənan oğlu Tağıyevdir. 11 aydır ki, mühəndis bölüyündə xidmətini uğurla davam etdirən Xəyal öz daxili dünyasını, Vətənə olan bağlılığını və təəssüratlarını bizimlə bölüşdü: “Doğum günümdə ön xətdə xidmət yoldaşlarımın əhatəsində olmaq, komandirlərimin diqqətini hiss etmək mənim üçün unudulmaz bir hadisədir. Bu əlamətdar gündə məni tək qoymayan, varlığı ilə bizə hər zaman güc verən Əlahiddə Ümumqoşun Ordunun komandanlığına, hər bir çətinliyimizdə yanımızda olan doğma komandirlərimə və çiyin-çiyinə xidmət etdiyim əsgər yoldaşlarıma səmimi-qəlbdən təşəkkür edirəm.

Bizə xoş diləklərini ünvanlayan balaca məktəblilərimiz əmin olsunlar ki, qardaşlarına etibar edilən bu müqəddəs postlarda xalqımızın əmin-amanlığını uca tutmaq, nizam-intizama tam riayət etmək başlıca vəzifəmizdir. Bundan sonra da xidmətimizi eyni əzmlə davam etdirəcək, bizə göstərilən bu etimadı ləyaqətlə doğruldacağıq”.

Nümunəvi əsgərlərimizdən biri də Sumqayıt şəhərindən hərbi xidmətə çağırılan əsgər Elşad Əlizadə öz təəssüratlarını və ürək sözlərini bizimlə qürurla paylaşdı: “Üzərimizdə daşıdığımız bu müqəddəs əsgər forması millətimizin bizə bəslədiyi sonsuz etimadın, dövlətimizin qüdrətinin rəmzidir. Müdafiə xəttində keşik çəkdiyimiz hər gün mənə dərindən aşıladı ki, güclü ordu həm də hər bir döyüşçünün fərdi peşəkarlığı və daimi hazırlığı üzərində qurulur. Vətənimizin keşiyində olmaq mənim üçün ən böyük şərəfdir”.

Məktubların gətirdiyi mənəvi gücü, arxa cəbhədən gələn saf duaları öz çiyinlərində hiss edən əsgər Ünal Ələsgərov Şərur rayonundan hərbi xidmətə çağırılıb. Hərbi xidmətinin bir ilini geridə qoyan əsgər öz ürək sözlərini belə ifadə etdi: “Biz elə bir bəxtiyar nəslin nümayəndələriyik ki, çiyinlərimizdə qazanılan o unudulmaz böyük Zəfərin fərəhini daşıyırıq. Hərbi həyat gəncliyə ciddi nizam-intizam aşılayır və insanın müxtəlif çətin anlarda düzgün qərar vermək qabiliyyətini artırır. Uca zirvələrdə, səngər boyu ucalan müqəddəs bayrağımızın kölgəsində torpağımızın keşiyini çəkmək mənim müqəddəs amalımdır. Arxamızda dayanan milyonlarla soydaşımızın dinc yaşaması üçün bu ayıq-sayıqlığı qorumaq bizim ən ali hədəfimizdir”.

Strateji mövqelərdə dayanan hər bir əsgərin fərqli bölgələrdən gəlməsinə baxmayaraq, eyni amal ətrafında necə bir yumruq kimi birləşdiyini növbəti döyüşçümüzün təqdimatında da aydın görmək oldu. Bakı şəhərinin Qızıldaş qəsəbəsində böyüyən, artıq on aydır ki, uca zirvələrdə xidmət aparan əsgər Mətləb Əmirov isə öz hisslərini bu cür bölüşdü: “Addımladığımız bu uca zirvələrin bizim üçün mənası tamam başqadır; çünki bu coğ-



rafiya qəhrəmanlarımızın bizə əmanət etdiyi tarixi bir mirasdır. Bizdən öncə bu yollarda dastan yazanların yolunu davam etdirmək əsl ləyaqət məsələsidir. Bu şərəfli günlərimdə mənə hər an mənəvi dayaq olan, dualarını əsirgəməyən əziz ailəmə də uca zirvələrdən sonsuz sevgilərimi və salamlarımı göndərirəm. Bu torpaq gələcək nəsillərə ötürəcəyimiz ən müqəddəs əmanətdir, biz də bu əmanəti ləyaqətlə qoruyacağıq”.

Nəhayət, qədim Şərur torpağının daha bir mərd yetirməsini oxucularımıza təqdim edirik. Artıq bir ildir ki, strateji mövqedə ayıq-sayıq keşik çəkən əsgər Murad Rəhimov öz mənəvi dünyasını və sarsılmaz iradəsini bu təsirli sözlərlə dilə gətirdi: “İqlimin bütün təbii çətinlikləri, istisi və soyuğu bizim iradəmiz qarşısında acizdir. Çünki ürəyimizdə daşıdığımız Vətən sevgisinin hərarəti o qədər güclüdür ki, bu zirvələri belə isitməyə bəs edir. Burada, ön xətt postlarında dostluğunun, çiyin-çiyinə dayandığım silahdaşlarımın dəyərini daha dərindən anladım. Xüsusilə məktəblilərimizin bizə ünvanladığı o kiçik məktubları oxuyarkən qəlbimiz dağa dönür. O sətirlərdəki saf sevgi bir da-



ha sübut edir ki, qüdrətli Azərbaycan xalqının hər bir nümayəndəsi hər an öz əsgərinin yanındadır”.

Nümunəvi xidməti ilə seçilən əsgərlərimizlə yanaşı, onlara həm böyük qardaş, həm də qayğıkeş komandir olan zabitlərimizi tanımaq da bizim üçün qürurverici idi. Elə bu səbəbdən növbəti həmsöhbətimiz şəxsi heyətin dərin rəğbətini qazanmış gənc və peşəkar bölmə komandiri baş leytenant Elvin Bayramov 1998-ci il sentyabrın 6-da Tovuz rayonunun Qaraxanlı kəndində anadan olub. Vətənə peşəkar hərbçi kimi xidmət etmək arzusu onu Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) gətirib. 2020-ci ildə bu təhsil ocağını uğurla bitirərək Azərbaycan Ordusunun sıralarında xidmətə başlayıb. O, çətin relyefli ərazidə vəzifəsini uğurla icra edir. Dövlətin hərbçilər üçün yaratdığı yüksək şəraitdən və hərtərəfli təminatdan maksimum bəhrələnən zabit öz xidməti fəaliyyətini və ürək söz-



lərini bizimlə bölüşərkən bildirdi: “Hərbi Andımıza sədaqət və xidmətimizə olan bağlılıq hər birimizin qəlbinin dərinliklərindən doğan ən ali hissdir. Mən də xidmətdə olduğum ilk gündən bəri xalqımızın əmin-amanlığı, dövlətimizin müdafiəsi naminə var gücümlə, sarsılmaz bir iradə ilə çalışmağı özümə müqəddəs borc bilirəm. Bu qürurlu günlərimizdə rəhbərliyimizin ölkədəki hərbi strukturlarda, xüsusilə ön xətt bölmələrində xidmət edən hər bir hərbçi üçün yaratdığı yüksək məişət şəraitindən və hərtərəfli müasir təminatdan maksimum bəhrələnirik.

Bir komandir kimi əsas məqsədim mənə etibar edilən əsgərlərimizin döyüş və peşəkarlıq qabiliyyətini ən üst səviyyəyə çatdırmaqdır. Şəxsi heyətin fiziki cəhətdən güclü olması ilə bərabər, onların asudə saatlarının mənalı təşkili üçün bütün imkanlarımı səfərbər etmişəm. Yeganə hədəfim odur ki, əsgərlərimiz hərb sənətinin sirlərinə mükəmməl yiyələnsinlər, xidmətlərini başa vurduqdan sonra isə xalqımıza layiq, cəmiyyətə xeyirli şəxsiyyətlər kimi evlərinə dönsünlər. Sizə bizi ziyarət etdiyiniz, əsgərlərimizlə məktəblilər arasında məktublar vasitəsilə belə gözəl əlaqəni yaratdığınız və bunları mətbuat vasitəsilə ictimaiyyətə çatdırdığınız üçün təşəkkür edirik”.

Komandirin bu səmimi və vətənpərvər arzuları əsgərlərin hər birinin simasında dərin bir inam hissi oyadırdı. Məhz belə komandirlərin rəhbərliyi altında xidmət edən, balaca məktəblilərin məktublarını ürəkdolusu cavablandıran igidlərimizi tanıdıqca insan qəlbində Vətəninin gələcəyinə olan arxayınlıq hissi daha da möhkəmlənir.

Arxa cəbhənin qayğısını və uşaqların sevincini hərbi xidmətin məsuliyyəti ilə qovuşduran bu səmimi görüşlər bir daha sübut edir ki, Vətən torpaqları etibarlı əllərdədir. Hər bir hərbi qulluqçunun qəlbindəki Vətən sevgisi, xalqımıza bəslənən sonsuz hörmət və əcdadlarımızın qoyub getdiyi mirasın qorunması uğrunda çəkilən zəhmət sabahımızın daha aydın, daha qüdrətli olacağının ən parlaq təminatıdır.

**Bəxtiyar ƏLİYEV**
**“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin mətbuat katibi**

Redaksiyamızın poçtundan

# “Onların qalib ordumuzun zabitlərindən olacağını xəyal etmək belə böyük fəxrdir”



Mən, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunu olmuş və gələcək hərbi təhsilini Heydər Əliyev adına Hərbi İnstitutda davam etdirəcək kursant Nihad Bəxtiyarovun atasıyam. Qəzetiniz vasitəsilə həm Hərbi liseyin, həm də hazırkı Hərbi institutun rəhbərliyinə və müəllim heyətinə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Oğlum Hərbi liseyə qəbul olunduğu ilk gündən dövlətimizin xüsusi diqqət və qayğısını hiss etdik. C.Naxçıvanski adına Hərbi Lisey ona təkcə hərbi nizam-intizamı öyrətmədi, həm də onu cəsur, vətənpərvər və savadlı bir gənc kimi formalaşdırdı. Bu gün onun gələcəyin peşəkar zabiti olmaq yolunda inamla addımlamasını görmək bir valideyn olaraq mənim üçün ən böyük xoşbəxtlikdir.

Oğlumla hərbi təhsil almaq qərarını birgə oturub xeyli müzakirə etdik. Sonda onun hərb sənətinə qarşı sonsuz sevgisini duyub, şərəfli peşə sahibi olmaq istəyini dəstəklədik. Uşaqların gələcək həyatları, peşələri haqqında seçim edərkən valideynlərin məsləhətləri və dəstəyi mühüm rol oynayır. Həm də bu valideyn üçün çox məsuliyyətli və çətin məsələdir. Şükürlər olsun ki, indi verdiyimiz bu qərar üçün olduqca sevincliyik. Hərbçi peşəsi müqəddəs peşədi. Onlar Vətənimizin keşiyində dayanırlar. Bu gün 30 ilə yaxın işğalda qalan torpaqlarımız azaddırsa, ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunubsa, xalqımız qalib xalq kimi tanınırsa və Böyük Qələbəmizin sədaları bütün dünyaya səs salıbsa, bunların hamısı hərbçilərimizin şücaəti, rəşadəti, Vətənə sevgilərinin nəticəsidir. Hər bir azərbaycanlı onlara minnətdardır və onlarla qürur duyur. Mən inanmıram ki, hansısa valideyn övladının belə müqəddəs peşəyə sahib olmaq istəyinə qarşı çıxsın. Bu cəsarətli və qürurverici addımı ancaq dəstəkləmək olar. Bu yolu seçənlərin hər birinə uğurlar arzulayıram. İnanırıq ki, onların vətənpərvərliyi, peşələrinə olan sonsuz sevgiləri, eləcə də müəllim-komandir heyətinin zəhməti nəticəsində hər biri peşəkar zabit kimi formalaşıb qalib ordumuzun müdafiə qüdrətinin daha da gücləndirilməsi istiqamətində öz töhfələrini verəcək.

Övladlarımızın yüksək səviyyədə təhsil alması, müasir hərbi biliklərə yiyələnməsi üçün yaradılan şəraitə görə dövlət rəhbərliyinə minnətdarıq, həmçinin onların üzərində gecə-gündüz əməyi olan komandirlərə təşəkkür edirik. Əminik ki, övladlarımız hər zaman milli-mənəvi dəyərlərimizə, dövlət və dövlətçiliyimizə sadiq olacaq, şərəfli xidmətləri ilə başımızı uca edəcəklər.

Hörmətlə,

**Bəxtiyarov Rövnət Şahbaz oğlu**
**Astara rayonu**

Hörmətli redaksiya, ölkəmizdə gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması mövzusuna qəzetinizdə geniş yer verdiyinizi mütəmadi olaraq izləyirik. Mən də bir kursant dayısı kimi bu mövzuda öz fikirlərimi oxucularınızla bölüşmək istəyirəm.

Mənim bacım oğlu Səbuhi Vüqar oğlu İsmayıllı Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirərək hərbi təhsilini Heydər Əliyev adına Hərbi İnstitutda davam etdirəcək. Bu gün müstəqil Azərbaycanın qalib ordusunda xidmət etməyə hazırlaşan gənclərin valideyni olmaq böyük məsuliyyətdir. Hərbi liseydə səmərəli keçirilən dərslər, öyrədilən hərbi biliklər və hərbi nizam-intizam, eləcə də aşılanan vətənpərvərlik hissləri övladlarımızın sağlam düşüncəli, polad iradəli şəxsiyyətlər kimi formalaşmasında əvəzsiz rol oynayır. İndidən onun xarakterində zabit şəxsiyyətinin formalaşdığını aydın duymaq olur. Deyərdim ki, Hərbi liseydə təkcə dərslər keçirilmir. Bura gənc kursantların düzgün şəxsiyyət kimi formalaşmasında əvəzsiz rol oynayır. Bir kursant yaxını kimi övladımızın bu müsbət dəyişimini gördükcə, burada təhsil almasında verdiyimiz qərar üçün nə qədər haqlı olduğumuzu anlayırıq.

Bu gün sevincimizin həddi-hüdudu yoxdur. Səbuhinin bu müqəddəs yolda uğurla addımladığını görmək, qalib ordumuzun zabitlərindən olacağını xəyal etmək belə böyük fəxrdir.



İnanıram ki, o da bu peşənin ağır yükünü çiyinlərində şərəflə daşıyaraq Vətənə, Azərbaycan Ordusuna qüsursuz xidmət edəcək.

Qəzetiniz vasitəsilə yeniyetmə gənclərə və onların valideynlərinə səslənmək istəyirəm: Övladlarınızı hərbi təhsilə, xüsusən də şanlı tarixi olan Cəmşid Naxçıvanski adına Hərbi Liseyə yönləndirməkdən çəkinməyin. Ora sadəcə bir lisey deyil, neçə-neçə qəhrəman oğulların təhsil aldığı, hərb tariximizdə mühüm yeri olan vətənpərvərlik ocağıdır.

Hörmətlə,

**İsmayıllı Təbriz Səfər oğlu**
**Bakı şəhəri**

## Milli Müdafiə Universiteti Hərbi Hava Qüvvələri ixtisasları üzrə “Zabit hazırlığı kursu”na qəbul elan edir




Milli Müdafiə Universiteti cari ilin 29 iyun - 13 iyul tarixlərində Hərbi Hava Qüvvələri ixtisasları üzrə “Zabit hazırlığı kursu”na sənəd qəbulu elan edir. “Zabit hazırlığı kursu”na ali təhsilli, müddətli həqiqi hərbi xidmət keçmiş Azərbaycan Respublikasının 35 yaşınadək kişi cinsli vətəndaşları müraciət edə bilərlər.

Kursa qəbul olmaq üçün müraciət etmiş namizədlər hərbi xidmətə yararlılıq dərəcəsinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir və Hərbi Həkim Komissiyasının qərarına əsasən zabitlərin həqiqi hərbi xidmətinə yararlı hesab edilmiş şəxslər müsabiqə mərhələsinə buraxılırlar.

Namizədlər müsabiqə mərhələsində fərdi-psixoloji və fiziki hazırlığı, ümumi bilik səviyyəsi və ixtisas uyğunluğu nəzərə alınmaqla kursa qəbul edilirlər.

mmu.edu.az saytının “Təhsil müəssisələrinə qəbul” bölməsindəki “Zabit hazırlığı kursu” hissəsində hərbi uçot ixtisaslarının ali təhsil ixtisaslarına uyğunluğu barədə ətraflı məlumat əldə etmək mümkündür.

**İxtisaslar:**

- Radioelektron mübarizə;
- Hava hücumundan müdafiə;
- Aviasiya;
- Meteoroloq;
- Rabitə.

mmu.edu.az saytının “Təhsil müəssisələrinə qəbul” bölməsindəki “Zabit hazırlığı kursu” hissəsində hərbi uçot ixtisaslarının ali təhsil ixtisaslarına uyğunluğu barədə ətraflı məlumat əldə etmək mümkündür.

Tələb olunan sənədlər:

- kursa qəbul olunmaq barədə ərizə;
- anket forması;
- tərcümeyi-hal (1 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- xarici dövlətlərdə təhsil almış namizədlərin ixtisaslarının Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən tam tanınmasına (akademik və peşə) dair sənədin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- yaşayış yeri və ailə tərkibi haqqında arayış (1 nüsxədə);
- əlavə peşə və ya ixtisasınız varsa, təsdiqedici sənədlərin surəti (diplom, sertifikat, şəhadətnamə və s.);
- şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış (1 nüsxədə);
- sürücülük vəsiqəsinin surəti (əgər varsa, 1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (1 nüsxədə);
- rəngli fotoşəkil (baş geyimsiz, anfas, 6 ədəd 3x4 sm və 1 ədəd 9x12 sm);
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş, 1 nüsxədə);
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

**Qeyd**:

- müraciət etmək istəyən namizədlər mmu.edu.az saytının “Təhsil müəssisələrinə qəbul” bölməsindəki “Zabit hazırlığı kursu” hissəsinə keçid edərək elektron sənəd qəbulu portalından müvafiq sənədlərlə tanış ola bilərlər;
- məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Əlaqə məlumatları:**
Telefon: (012) 404-18-45
Çağrı mərkəzi: *0811
E-poçt: admission@mmu.edu.az
Ünvan: Bakı şəhəri, Qızıl Şərq 13. AZ1065.

Hərbi terminlər

## Blindaj - döyüş meydanında etibarlı sığınacaq



Müasir döyüş əməliyyatlarında şəxsi heyətin mühafizəsi ən vacib məsələlərdən biridir. Artilleriya zərbələrinin, minaatan atəşinin, aviasiya hücumlarının və pilotsuz uçuş aparatlarının geniş tətbiq olunduğu şəraitdə möhkəm istehkam qurğularının əhəmiyyəti daha da artır. Bu qurğular arasında blindaj xüsusi yer tutur.

Blindaj – şəxsi heyətin düşmənin atəş təsirindən, qəlpələrdən, zərbə dalğasından və əlverişsiz hava şəraitindən qorunması üçün torpağın altında və ya torpaq qatından istifadə edilməklə inşa olunan qapalı müdafiə qurğusudur. O, sahə istehkamlarının əsas elementlərindən biri hesab edilir və müdafiə mövqelərinin mühəndis cəhətdən təchiz edilməsində geniş tətbiq olunur. Blindajlar adətən ağac, dəmir-beton, metal konstruksiyalar və digər möhkəm materiallardan tikilir, üstü isə qalın torpaq və ya dəmir-beton ilə örtülür. Belə quruluş onların davamlılığını artırır və düşmənin atəş vasitələrinin təsirini əhəmiyyətli dərəcədə zəiflədir. Qurğunun ölçüsü və tutumu yerinə yetirilən döyüş tapşırığından, şəxsi heyətin sayından və mövcud şəraitdən asılı olaraq müəyyən edilir. Döyüş şəraitində blindaj yalnız sığınacaq funksiyasını yerinə yetirmir. O, rabitə vasitələrinin mühafizəsi, sursat və digər zəruri ehtiyatların saxlanılması üçün də istifadə oluna bilər. Düzgün seçilmiş yer, keyfiyyətli maskalanma və möhkəm konstruksiya blindajın döyüş şəraitində effektivliyini artıran əsas amillərdir. Müasir müşahidə və zərbə vasitələrinin sürətlə inkişaf etdiyi bir dövrdə möhkəm istehkam qurğularının qurulması şəxsi heyətin itkilərinin azalmasına və bölmələrin döyüş qabiliyyətinin qorunmasına mühüm töhfə verir. Bu baxımdan blindaj bu gün də öz əhəmiyyətini qoruyan, hərbi mühəndis hazırlığının əsas anlayışlarından biri olaraq qalır.

**Hazırladı:**
**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Balakişiyeva Aysel Süleyman qızına verilmiş AD № 0048026 nömrəli və baş əsgər Əliyev Şamxal Tahir oğluna verilmiş AD № 0057867 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Hüsniyyə NƏSİROVA

Lisenziya № 361
Sifariş № 609
Nüsxə 3653